Tədbiri GRBS təlim şirkətinin Beynəlxalq peşəkar kvalifikasiyalar departamentinin direktoru Sübhan Qasımlı açaraq təlim kursunun vəzifələri və iştirak qaydaları haqqında məlumat verib. S.Qasımlı iştirakçıları GRBS şirkətinin beynəlxalq maliyyə hesabatları ilə bağlı nəşr etdiyi təlim vəsaiti ilə tanış edib.

"Dövlət İnvestisiyaları üzrə Kadr Potensialının Gücləndirilməsi Layihəsi"nin təlimlər üzrə müşaviri Araz Paşayev layihənin və kursun vacibliyini, beynəlxalq əhəmiyyətini qeyd edərək iştirakçılara fəal, səmərəli təlim arzulayıb.

Təhsil Nazirliyinin Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinin müdiri, "Dövlət İnvestisiyaları üzrə Kadr Potensialının Gücləndirilməsi Layihəsi"nin milli əlaqələndiricisi Fərzəli Qədirov, Təhsil Sektorunun İnkişafı üzrə Layihənin Əlaqələndirmə Qrupunun rəhbəri Elvin Rüstəmov layihə haqqında geniş məlumat verib, layihənin məqsədi-benefisiarlar qismində seçilmiş təşkilatlarda institusional dəyişikliklərə nail olunması və ünvanlı təlimlərin təşkili, davamlı təlim sisteminin yaradılması vasitəsilə dövlət investisiyaları üzrə kadr potensialının gücləndirilməsi barədə fikirlərini bildiriblər. Nəzərə çatdırılıb ki, layihə dörd komponentdən-ümumi mövzular üzrə potensial quruculuğu, sektorlar üzrə potensial quruculuğu, potensial quruculuğunu dəstəkləyən fəaliyyətlər və layihənin icrasından ibarətdir.

Qeyd edək ki, layihə dövlət investisiyaları ilə fəaliyyət göstərən strukturların kadr potensialının gücləndirilməsinə yönəlib. Layihənin icraçı agentliyi kimi Azərbaycan Respublikasının Təhsil Nazirliyi seçilib. Layihə 3 noyabr 2009-cu il tarixdən qüvvəyə minib. Layihənin ümumi dəyərini 10 milyon ABŞ dolları təşkil edir ki, bunun da 8 milyonu Dünya Bankı, 2 milyonu isə Azərbaycan Hökuməti tərəfindən ödənilib.

Beynəlxalq Maliyyə Hesabatları Standartları üzrə təlimdə Nəqliyyat Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, «Azəryolservis» ASC, «Azərsu» ASC, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC, Azərbaycan Dövlət Dəmir Yolları QSC, «Azərenerji» ASC və digər dövlət qurumlarının mühasibləri və maliyyə mütəxəssisləri iştirak edəcəklər. Təlim kursu mütəxəssislərin beynəlxalq maliyyə hesabatları standartları üzrə beynəlxalq attestasiyadan keçmələrinə imkan yaradacaq və bu sahədə kadr potensialının gücləndirilməsinə, təşkilatların iş prinsiplərinin təkmilləşdirilməsinə təkan verəcəkdir.